

Əjdər Qiyaslı
iqtisadçı alim, şair

# SƏXAVƏT

*Muğam dünyasının nadir incisi, görkəmli vətənsevər xanəndə, gözəl şəxsiyyət Səxavət Məmmədovun əziz və unudulmaz xatirəsinə ithaf edirəm.*

Alnina yazılan naxış bilərdi,
Hər günü, hər ayı, ili Səxavət.
Sevincdən gözləri, üzü gülərdi;
Dərəndə çiçəyi, gülü Səxavət.

Tanrıdan almışdı gözəl ilhamı,
Sehirli səsinə dalmışdı hamı.
Ona qəlb mehrini salmışdı hamı,
Dərərdi çiçəyi, gülü Səxavət.

Muğam dünyasıydı ömür karvanı,
Ana laylasıydı damarda qanı.
Sehrinə salmışdı tarı, kamanı;
Dərərdi çiçəyi, gülü Səxavət.

Səsinə el-oba heyran olardı,
Səmada quşlar da qanad saxlardı.
Bütün Qarabağa səda salardı,
Dərərdi çiçəyi, gülü Səxavət.

Elin çırağını gur yandırardı,
Küskün könülləri oyandırardı.
Parlaq bir ulduzu O andırardı,
Dərərdi çiçəyi, gülü Səxavət.

Əlində qavalı zilə qalxanda,
Sanki atlanırdı Koroğlu onda.
Beləsi az olar indi cahanda,
Dərərdi çiçəyi, gülü Səxavət.

Qoca da, cavan da, qız da, gəlin də;
Onu qarşılardı çiçək əlində.
Könül həmdəmiydi qönçə gülün də,
Dərərdi çiçəyi, gülü Səxavət.

Köməyə çatardı ən çətin anda,
Səxavət vergisi var idi onda.
Qoymazdı kimsəni qalsın amanda,
Dərərdi çiçəyi, gülü Səxavət.

Səsindən gözəllər cuşə gələrdi,
Gül üstə bülbülün üzü gülərdi.
Üzündən gözündən nur tökülərdi,
Dərərdi çiçəyi, gülü Səxavət.

Azad bir quş idi ellər bağında,
Yanırdı yağ kimi el çırağında.
Neynim... uçub getdi cavan çağında,
Dərərdi çiçəyi, gülü Səxavət.

Dünyaya səs salıb olsa da harda,
Səsinə həsrətdi kaman da, tar da.
Gözümüz qalıbdır çox intizarda,
Dərərdi çiçəyi, gülü Səxavət.

Əhdinə sadiqdir könül sirdaşı,
Yarına məskəndi qəlbinin başı.
Həmişə görürdü ömür yoldaşı,
Dərərdi çiçəyi, gülü Səxavət.




Gözəl övladları onu andırır,
Evində nur dolu çıraq yandırır.
Ata arzusunu qanadlandırır,
Dərərdi çiçəyi, gülü Səxavət.

İndi həsrət çəkir çiçək də, gül də,
İntizar içində niskil könül də.
Şirin nəğmə olub hər sözü dildə,
Dərərdi çiçəyi, gülü Səxavət.

Ayrılıq atəşi olur dərində,
Gözləri yoldadı nəğmələrin də.
Əbədi yaşayan nəğmələrində,
Dərəcək çiçəyi, gülü Səxavət.

Həmişə oxuyub... oxuyacaqdır,
Muğam dünyasına yenə dayaqdır.
Nə qədər həyat var... yaşayacaqdır,
Dərəcək çiçəyi, gülü Səxavət.